# AZƏRBAYCANIN MİLLİ QƏHRƏMANLARI



**Musayev Aqil Hüseyn oğlu**

1974-cü il noyabrın 3-də Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olub. 1991-ci ildə onuncu sinfi bitirib. Təhsilini Qazax şəhərindəki 117 nömrəli texniki-peşə məktəbində davam etdirərək sürücü peşəsinə yiyələnib.

1993-cü il mayın 18-də Milli Ordu sıralarına çağırılıb. Bir müddət təlim-məşq toplanışlarında iştirak edib. Sonra hərbi hissənin tərkibində cəbhəyə gedib. İlk döyüşü Ağdam bölgəsində olub.

Füzuli və Tərtər bölgələrində də erməni işğalçılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak edib. Füzuli istiqamətində gedən döyüşdə yaralanıb. Müalicə olunub yenidən səngərə qayıdıb.

1994-cü il oktyabrın 5-də Gəncə hadisələri zamanı qiyamçı dəstənin zərərsizləşdirilməsində iştirak edib və qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 5 oktyabr 1994-cü il tarixli 215 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Qazax rayon Əzizbəyli kəndində Şəhidlər xiyabanında dəfn edilib.



**Musayev Fəxrəddin Musa oğlu**

30 iyul 1957-ci ildə Türkmənistan Respublikasının Bayraməli şəhərində anadan olub. 1974-cü ildə orta təhsilini başa vurduqdan sonra Qorki Politexnik İnstitutunun gəmiçilik fakültəsinə qəbul olunub. 1975-ci ildə ordu sıralarına göndərilib. Silahlı Qüvvələrdən tərxis edildikdən sonra Bakı Məişət Kondisionerləri Zavodunda işləyib. 1979-cu ildə Sasovski adına Mülki Aviasiya Məktəbinə daxil olub. 1982-ci ildə həmin məktəbdə təyyarələrin uçuş istismarı ixtisasına yiyələnib. Bakıya qayıdaraq Zabrat-2 Aviasiya İdarəsində öz ixtisası üzrə işə başlayıb. 1987-ci ildə Kremençuq Hava Uçuş Məktəbində vertolyotun idarə edilməsi ixtisasına yiyələnib. İşləyə-işləyə Leninqrad Hidrometeorologiya İnstitutunun meteorologiya fakültəsinə daxil olub. Milli Ordu yarandıqdan sonra hərbi hava qüvvələrində xidmətə başlayıb. Qarabağda keçirilən hərbi əməliyyatlarda fəal iştirak edib. 1992-ci il aprelin 11-də Füzuli rayonu ərazisində düşmənə raket zərbələri endirərkən faciəli surətdə həlak olub.

Ailəli idi. Bir oğlu var.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Qusar rayonundakı mərkəzi küçələrdən biri F.Musayevin adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.



**Mustafayev Alı Mustafa oğlu**

14 aprel 1952-ci ildə Qazax rayonunun Qazaxbəyli kəndində anadan olub. 1969-cu ildə Daş Salahlı kənd orta məktəbini bitirib. 1973-cü ildə əsgəri xidməti başa vuraraq Bakı Elektrik Maşınqayırma Zavodunda əmək fəaliyyətinə başlayıb.

1976-cı ildə zavod həmkarlar təşkilatının və müəssisə rəhbərliyinin göndərişi ilə ADU-nun (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsinə daxil olub. 1981-ci ildə təhsilini başa vurub, Azərbaycan Dövlət Teleradio Şirkətində jurnalist kimi fəaliyyətə başlayıb. İşləyə-işləyə təhsilini davam etdirərək Bakı Ali Partiya Məktəbini də bitirib.

20 noyabr 1991-ci ildə Tuğ, Xocavənd, Qaradağlı kəndlərində törədilən faciələrlə yerində tanış olmaq üçün gedən hökumət nümayəndələri ilə birlikdə hərbi vertolyotda olub. Vertolyot erməni terrorçuları tərəfindən Qarakənd kəndi yaxınlığında vurulanda həlak olub.

Ailəli idi. Üç oğlu qalıb.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Bakının Nərimanov rayonundakı 202 nömrəli tam orta məktəb, 3-cü mikrorayondakı küçələrdən biri onun adını daşıyır.



**Mustafayev Çingiz Fuad oğlu**

29 avqust 1960-cı ildə Həştərxan vilayəti Vladimir rayonunun Kapustin-Yar qəsəbəsində hərbiçi ailəsində anadan olub. 1964-cü ildə ailəsi ilə birlikdə Bakıya köçüb. 1977-ci ildə Yasamal rayonundakı 167 nömrəli orta məktəbi bitirərək Azərbaycan Tibb İnstitutuna daxil olub. 1983-cü ildə ali təhsilini başa vuraraq, təyinatla üç il Dəvəçi rayonunda həkim işləyib. Sonra Bakıya qayıdıb.

İxtisasca həkim olsa da jurnalist sənətinə böyük həvəs göstərib. 1990-cı ilin yanvar hadisələrində Sovet Ordusunun Bakıda törətdiyi qırğını bütün təfsilatı ilə lentə köçürüb. 1991-ci ildən Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətində işə düzəlib. "215 KL" studiyasının yaradıcılarından biri olub. Xocalı faciəsi zamanı erməni quldurlarının vəhşiliklərini əks etdirən çəkilişləri məşhurdur.

1992-ci il iyunun 15-də Naxçıvanik kəndində gedən ağır döyüşü lentə alarkən qəhrəmancasına həlak olub.

Evli idi. Bir oğlu var.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

DİN-in Şüvəlan qəsəbəsindəki istirahət guşəsi, Bakı şəhərində küçə, ANS ÇM radiostansiyası, Azərbaycan gəmilərindən biri onun adını daşıyır.



**Mürsəlov Vüqar Mirəzbər oğlu**

10 mart 1963-cü ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. 1980-ci ildə buradakı 1 nömrəli orta məktəbi bitirib. 67 nömrəli Bakı texniki-peşə məktəbində təhsilini davam etdirib. Bakı Politexnik Texnikumunu bitirib. Belarusun Brest şəhərində hərbi xidmət keçib. 1984-cü ildə ordudan tərxis olunub. Göytəpə Avtomobil Təmiri Zavodunda öz ixtisası üzrə əmək fəaliyyətinə başlayıb.

1991-ci ildə Xüsusi Təyinatlı Polis Dəstəsinə yazılıb və torpaqlarımızın müdafiəsinə qalxıb. Füzuli, Xanlar, Ağdam, Laçın, Şuşa, Goranboy, Ağdərə bölgələri uğrunda gedən savaşlarda iştirak edib.

9 iyun 1992-ci ildə erməni faşistləri Tərtər rayonunun Cəmilli kəndi istiqamətindən hücuma keçəndə snayper gülləsinə tuş gəlib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Göytəpədə oxuduğu məktəbə onun adı verilib, şəhərin mərkəzində büstü qoyulub. Tərtər, Göytəpə, Cəlilabad şəhərlərində adına küçə var.



**Müslümov Valeh Əlizaid oğlu**

1968-ci il sentyabrın 2-də Lerik rayonunda anadan olub. 1983-cü ildə 2 nömrəli Lerik orta məktəbinin səkkizinci sinfini bitirib. Elə həmin il Sumqayıt şəhər 17 nömrəli texniki-peşə məktəbində dülgər ixtisasına yiyələnib. 1984-cü ildə 2 nömrəli Sumqayıt Tikinti Trestinin Səyyar Mexanikləşdirilmiş Dəstəsində çalışıb. 1988-ci ildə hərbi qulluqdan tərxis olunub. 1991-ci ilin avqust ayından DİN-in Xüsusi Təyinatlı Milis Dəstəsində xidmətə başlayıb. Şuşa, Xocalı, Tovuz və Qubadlıda keçirilən döyüş əməliyyatlarında iştirak edib, mərdliklə vuruşub.

1992-ci il aprelin 14-də erməni yaraqlıları xeyli texnika və canlı qüvvə ilə Marquşevan kəndinə hücuma keçəndə öz dəstəsi ilə ilk olaraq döyüşə girib. Bu qeyri-bərabər vuruşda yaralanıb. Buna baxmayaraq 11 nəfər yaralı döyüşçünü ölüm pəncəsindən xilas edib, lakin öz həyatını qoruya bilməyib.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Lerik rayonunda dəfn edilib.

Vaxtilə təhsil aldığı Lerik rayonundakı 2 nömrəli tam orta məktəb onun adını daşıyır.



**Mahmudov Ərəstun İspəndi oğlu**

23 fevral 1957-ci ildə İsmayıllı rayonunun Pirəbilqasım kəndində anadan olub. Ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb. 1974-cü ildə Bakının Nizami rayonundakı 220 nömrəli orta məktəbi bitirib. 1975-ci ildə Leninqrad vilayətinin Vıborq şəhərində yerləşən Mülki Aviasiya Məktəbinə daxil olub. 1978-ci ildə təhsilini başa vurub və Azərbaycan Hava Yollarının Zabrat Aviasiya şirkətində texnik-mexanik kimi AN-2 təyyarəsində əmək fəaliyyətinə başlayıb.

1989-cu ildə Omsk şəhərində ixtisasartırma kursu keçərək Mİ-2 vertolyotunun bort-mexaniki olub. 1990-cı ildə Ukraynanın Kremençuq şəhərinə növbəti ixtisasartırma kursuna göndərilib. Mİ-8 vertolyotunun bort-mexaniki təyin edilib. Dağlıq Qarabağ və Ermənistanla həmsərhəd olan rayonlarda döyüş əməliyyatı keçirən ekipajın tərkibinə daxil edilib.

Cəbhə bölgələrinə son uçuşu 28 yanvar 1992-ci ildə olub. Ağdam və Şuşa marşrutu üzrə yerli əhalini daşıyarkən Mİ-8 vertolyotu erməni yaraqlıları tərəfindən raketlə vurulub. Bütün heyətlə birlikdə o da qəhrəmancasına həlak olub.

Ailəli idi. Üç övladı var.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bakı şəhərində Şəhidlər xiyabanında dəfn edilib.

Oxuduğu 220 nömrəli tam orta məktəb onun adını daşıyır. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulub.



**Makeyev İqor Vladimiroviç**

27 oktyabr 1971-ci ildə Gəncə şəhərində anadan olub. 1987-ci ildə Mir Cəlal adına 39 nömrəli orta məktəbin səkkizinci sinfini bitirib. 1987-1990-cı illərdə 8 nömrəli texniki-peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnib. 1990-cı il noyabrın 26-da hərbi xidmətə çağırılıb. Bakıda desant qoşunları hissəsində xidmət keçib.

Dağlıq Qarabağ münaqişəsi başlayanda Bakıya gəlib və Daxili İşlər Nazirliyinin qoşun hissələrindən birinə yazılıb.

1992-ci il iyunun 5-də erməni quldurları Naxçıvanik kəndinə hücuma keçəndə onlara qarşı vuruşub. Həmin döyüşdə ermənilər kəndi alsalar da bu cəmi 3-4 saat çəkib. Döyüşçülərimiz yenidən hücuma keçərək qəsbkarları oradan qovublar.

Ağdərə uğrunda gedən döyüşlərdə bura köməyə gələn əsgərlərin arasında o da olub və mərdliklə döyüşüb.

2 avqust 1992-ci ildə "Vışka" yüksəkliyi uğrunda döyüşdə ön cərgədə mövqe tutub və 28 nəfərin mühasirədən çıxmasına kömək edib, özü isə xilas ola bilməyib. Bu ağır döyüşdə qəhrəmancasına həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Gəncə şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Sadıllı qəsəbəsində adına küçə var.



**Mehdiyev Fazil Umud oğlu**

20 avqust 1966-cı ildə Laçın rayonunun Ələqi kəndində anadan olub. Körpə olarkən ailəsi Ağdam rayonunun Abdal-Gülablı kəndinə köçüb. 1983-cü ildə bu kənddə orta təhsilini başa vurub. 1984-1986-cı illərdə hərbi xidmətdə olub. Abdal-Gülablıda yerləşən sanatoriyada sürücü işləyib.

1990-cı ildə Ağdam Rayon Daxili İşlər Şöbəsində yaradılmış polis batalyonuna yazılıb.

1991-ci ildə Ağdərənin Canyataq, Mehmanə, Qazançı, Sırxavənd kəndlərində gedən qızğın döyüşlərdə iştirak edib. Qaradağlı kəndində ayağından ağır yaralanıb. Yarası hələ tam sağalmamış döyüş yoldaşlarının yanına qayıdıb.

1991-ci ilin avqustunda ermənilərin "Niva" markalı maşınını ələ keçirərək Ağdam Rayon Polis Şöbəsinə təhvil verib.

1991-ci il sentyabrın 23-dən 24-nə keçən gecə ermənilər böyük qüvvə ilə Abdal-Gülablı kəndinə hücuma keçəndə köməyə tələsən F.Mehdiyev və dostu Ağbulaq kəndi yaxınlığında qəfil hücuma məruz qalıblar. Bu döyüşdə faciəli surətdə həlak olub.

Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ağdamın "Qarağacı" qəbiristanlığında dəfn edilib.

Bakının Nəsimi rayonunda büstü qoyulub. Səbail rayonunda adına küçə var.



**Nəsibov Kamil Balədə oğlu**

8 oktyabr 1946-cı ildə Laçın rayonunun Bozlu kəndində anadan olub. 1963-cü ildə orta təhsilini rayonun Minkənd kəndində bitirib və elə həmin il ordu sıralarına hərbi xidmətə göndərilib. Üç ildən sonra Silahlı Qüvvələrdən tərxis olunub. 1973-cü ildə Azərbaycan Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti) daxil olub. Ali təhsilini başa vurduqdan sonra Minkənd ərazisində yerləşən Tikinti Materialları Bazasına müdir təyin edilib.

Laçın ermənilərin hücumuna məruz qalanda rayonu müdafiə etmək üçün 30 nəfərdən ibarət özünümüdafiə dəstəsi yaradıb. Dəstə onun rəhbərliyi altında Sadınlar, Çağazur, Malıbəy, Cicimli, Qazıdırı kəndlərinin düşməndən təmizlənməsində böyük xidmətlər göstərib. Rayonun Fərəcan, Səfiyan, Xanalılar, Suarası kəndlərinin düşməndən təmizlənməsində igidlik göstərib.

29 iyun 1992-ci il "Qonaqgörməz" yüksəkliyi uğrunda gedən döyüşlərdə düşmən snayperinin gülləsinə tuş gəlib və aldığı ağır yaradan həlak olub.

Ailəli idi. Dörd övladı var.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Ağcabədi rayonunda dəfn edilib.

Doğulduğu kənddəki mədəniyyət evi onun adını daşıyır.

*Məlumatların hazırlanmasında "Heydər Əliyev və Azərbaycanın milli qəhrəmanları. Müqəddəs amal" kitabından istifadə olunub.*